# Şura iclası



Qəbələ Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıq işlərinin gedişi ilə əlaqədar şura iclası keçirilmişdir

25 oktyabr 2023-cü il tarixində Qəbələ Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıqla bağlı növbəti şura iclası keçirilib. İclasda mövcud problemlər və qarşıda duran məsələlər müzakirə edilmiş, aidiyyəti qurumlara müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Sonda bir qrup dövlət qulluqçusu dövlət qulluğunda səmərəli fəaliyyətinə görə rayon icra hakimiyyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.



# Vətəndaş qəbulu



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə keçirilən qəbulda vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər dinlənilmiş, bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür.

**Foto S. Umuyevindir.**

# 15 oktyabr - İlham Əliyevin ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar tədbir keçirilmişdir



Rayon icra hakimiyyətinin və YAP Qəbələ Rayon Təşkilatının təşkilatçılığı ilə 15 oktyabr-İlham Əliyevin ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhadətə yüksəlmiş şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bütün sahələrin prezidentimiz tərəfindən daha da inkişaf etdirildiyini, demokratik, hüquqi dövlət quruculuğunun prinsiplərini qeyd etmiş, regionda reallaşdırılan beynəlxalq və irimiqyaslı bütün layihələrin Azərbaycanın iştirakı, milli maraqlarının nəzərə alınması ilə həyata keçirildiyini bildirmiş, son 20 il ərzində Qəbələ rayonunda görülmüş işlər, həyata keçirilən respublika və beynəlxalq əhəmiyyətli tədbirlərdən danışmışdır. Digər çıxış edənlər Ümummilli lider Heydər Əliyevin banisi olduğu təhsil, səhiyyə, mədəniyyət və gənclər siyasəti sahəsində qazanılmış uğurlar haqqında məlumat vermişlər. Sonda partiya sıralarına yeni qəbul olunmuş bir qrup gəncə partiyanın üzvlük vəsiqəsi təqdim edilmiş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "Müharibə və sülh dövrünün qəhrəmanı" sənədli filmi nümayiş olunmuşdur.

# Səfir xanım Marianxeles Belluşi rayonumuza səfər etmişdir

18 oktyabr 2023-cü il tarixində Argentina Respublikasının Azərbaycan Respublikasındakı səfiri xanım Marianxeles Belluşi Qəbələ rayonuna səfər etmişdir. RİH-nin inzibati binasında keçirilən görüş zamanı səfirə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abullayev tərəfindən rayonun iqtisadi vəziyyəti, sosial və mədəni həyatı barədə ətraflı məlumat verilmişdir. Diqqətə çatdırılmışdır ki, bu gün respublikamızda əldə edilən sosial-iqtisadi inkişafın bariz nümunəsini Qəbələ rayonunun simasında aydın görmək olar. Rayonda yaradılan yeni istehsal müəssisələri, sənaye və turizm obyektləri Qəbələnin iqtisadi inkişaf dinamikasının artmasında müstəsna rol oynayır. Qeyd olunmuşdur ki, multikultiralizm və tolerantlıq nümunəsi olan Qəbələdə beynəlxalq və respublika əhəmiyyətli böyük tədbirlər keçirilir. Səfər çərçivəsində səfir xanım Marianxeles Belluşi və onun başçılıq etdiyi nümayəndə heyəti Qəbələ "Qida Şəhərciyi", Nic qəsəbəsində yerləşən "Müqəddəs Məryəm Ana" (Bulun) alban kilsəsi, Qəbələ Dövlət Tarix Bədii qoruğu, "ASPİ Agro" MMC-nin "Savalan" üzüm emalı və şərab istehsalı müəssisəsi və turizm infrastrukturu ilə tanış olmuşdur.



# Xalqımızın xilaskarı, müasir, müstəqil Azərbaycan dövlətinin banisi

Qəbələ Rayon İcra Hakimiyyətinin və YAP Qəbələ rayon təşkilatının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar "Xalqımızın xilaskarı, müasir, müstəqil Azərbaycan dövlətinin banisi" mövzusunda tədbir keçirilmişdir. Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin abidəsini və torpaqlarımızın azadlığı uğrunda şəhadətə yüksəlmiş şəhidlərin xatirəsinə ucaldılmış Şəhidlər Xiyabanı kompleksini ziyarət etmiş, xatirələrini ehtiramla yad edərək önünə gül dəstələri düzmüşlər. Qəbələ Rayon Mədəniyyət Mərkəzində davam edən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, ulu öndər Heydər Əliyevin, torpaqlarımızın azadlığı uğrunda canından keçərək şəhadətə ucalmış şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmiş və Ümummilli Liderin keçdiyi şərəfli yolu əks etdirən film nümayiş etdirilmişdir. Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyasının keçdiyi uğurlu inkişaf yolundan danışmışdır.



Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev çıxış edərək Ümummilli lider Heydər Əliyevin banisi olduğu Yeni Azərbaycan Partiyasının yarandığı gündən böyük ictimai dəyərlərin daşıyıcısı olduğunu, ölkə prezidenti, Partiyanın sədri cənab İlham Əliyevin yorulmaz, fədakar fəaliyyəti sayəsində ölkə iqtisadiyyatının inkişaf etdiyini, dayanıqlı əsaslara söykənən xalq-iqtidar birliyinin yarandığını qeyd etmişdir. Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Samir Cəfərov və Azərbaycan Respublikası Milli Məclisinin Deputatı Ramil Həsən çıxışlarında Azərbaycanın dövlətçilik tarixinin çox mühüm mərhələsinin dünya şöhrətli siyasətçi, böyük dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd etmiş və müqəddəs amallar uğrunda müstəsna fəaliyyət göstərdiyini bildirmişlər. Tədbirdə həmçinin, YAP Qəbələ rayon təşkilatının fəalları çıxış etmişlər. Sonda bir qrup YAP fəallarına rayon icra hakimiyyətinin Fəxri Fərmanı və partiya sıralarına yeni qəbul olunmuş bir qrup şəxsə partiyanın üzvlük vəsiqəsi təqdim edilmişdir.

